AZƏRBAYCAN www.azerbaijan-news.az

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 102.1-ci maddəyə "qaydaları əleyhinə" sözlərindən sonra "və bu məcəllənin 602.1-ci və 602.2-ci maddələrində nəzərdə tutulmuş" sözləri əlavə edilsin.

2. 263-cü, 280-ci, 537.1-ci, 539.2-ci, 544.1-ci, 545-ci, 548.1-ci, 548.2-ci, 551.1-ci, 551.2-ci və 598.0.6-cı maddələrdə "görə" sözündən əvvəl "(sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi yerlərə gəlməklə aparılan yoxlamalara münasibətdə bu məcəllənin 602.4-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olunmaqla)" sözləri əlavə edilsin.

3. 494-cü maddədə "keçirməsinə" sözündən sonra "sahibkar olmayan subyekt tərəfindən" sözləri əlavə edilsin.

4. 548.1-ci maddədən "və ya yoxlayıcıların yoxlama yerinə buraxılmamasına" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 mart 2016-cı il*